## *"Sağalmaq istəyirsənmi?"* *Yəhya 5:6*

Adam neçə il idi ki, iflic vəziyyətdə yatırdı. İsanın ona verdiyi sual necə də qəribə idi! Məgər bütün xəstələr sağalmaq istəmirlər?

Bəzən biz də düşüncəmizdə, hisslərimizdə özümüzü iflic kimi hiss edirik. Ola bilir ki, İsa bizə də eyni sualı verir: ***Sağalmaq istəyirsənmi? Dəyişmək istəyirsənmi?***

Hamımıza dəyişmək lazımdır. Ancaq bizim öz əməllərimiz və fikirlərimiz böyüməyimizə mane olur. İsa bizi sağaltmağı bacarır, lakin biz bunu istəyirikmi?

Otuz bir gün boyunca Matta 5-ci fəsildəki bəxtiyarlıq vədləri üzərində düşünmək və dua etmək üçün rəhbər olaraq nəzərdə tutulmuş bu kitab sizə ayağa durub daha böyük azadlığa girməkdə kömək edə bilər.

Bəxtiyarlıq vədləri İsanın yolunu tutan hər kəsə, yolun harasında olur-olsun, ümid verir. Hikmət xəzinəsindən bu səkkiz inci 2000 ildir ki, insanların bu qaranlıq dünyada qüvvəti, həyatın mənasını tapmasına yardım etmişdir. İsa, yollarını öyrənən hər kəsə xeyir-duanı, həqiqi xoşbəxtliyi, sülhü vəd edir.

Sizi iflic edən nədir? Ayağa durub yeriməyə başlamaq zamanı deyildirmi?

*Bu kitabı* ***www.learnhisways.com*** *saytından pulsuz endirə bilərsiniz.*

İsanın ardıcılları üçün

**HƏYAT DƏRSLƏRi**

# *Bəxtiyarlıq Vədləri ilə Məsihdə Böyümək*



31 günlük düşüncələr

*Fərdlər və ya qruplar üçün*